*Zülfəli İBRAHİMOV*
***Bakı Dövlət Universiteti sosiologiya və politologiya kafedrasının dosenti***

# MƏNƏVİYYAT KEŞİKÇİSİ

Azərbaycan xalqının çox hörmətli və dəyərli alimlərindən biri olan Abuzər müəllimi anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və elmi-pedaqoji fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayıram!

Professor Abuzər Xələfovu mən 1965-ci ildən - o vaxtkı ADU-nun kitabxanaçılıq fakültəsinin I kursuna daxil olduğum vaxtdan tanıyıram. Bu, Abuzər müəllimin 70 illik həyat yolunun düz yarısı deməkdir. Mən o vaxt da, indi də Abuzər müəllimi özümə müəllim hesab etmişəm. Bir alim və insan kimi Abuzər müəllimdə həqiqətən öyrənməli müsbət keyfiyyətlər çoxdur. Mən alın yazısı, tale və qismətə inanan adamam. Allah-taalaya sonsuz olaraq minnətdaram ki, mənim həyat yolumun üstünə Abuzər müəllim kimi gözəl bir insan çıxarıb və onunla rastlaşdırıb. Abuzər müəllim kimi insanların müasiri olmağın özü bir xoşbəxtlikdir.

Abuzər Xələfovu müxtəlif cəhətlərdən xarakterizə etmək olar. Lakin bu qısa xatirə yazısının həcmi imkan vermədiyindən bir neçə vacib hesab etdiyimiz məqamların üzərində dayanmaq istəyirəm. Professor Abuzər Xələfov hər şeydən əvvəl yüksək ünsiyyət mədəniyyətinə malik bir şəxsiyyətdir. Abuzər müəllim eyni zamanda özünə və ətrafdakılara qarşı həddindən artıq tələbkardır. Abuzər müəllimdə yüksək tələbkarlıqla insana qayğı və humanizm üzvi vəhdət təşkil edir. Mən həyatımda Abuzər müəllim kimi qanuna əməl və hörmət edən ikinci bir adam tanımıram.

Professor A.Xələfovu elm fədaisi, universitet elminin təşkilatçılarından biri kimi tanıyırıq. Respublikada çox-



minlik kitabxanaçı kadrların hazırlanmasında onun çox böyük zəhməti olmuşdur.

Bu gün həmin fakültənin bütün uğurları A.Xələfovun adı ilə bağlıdır və kollektiv Abuzər müəllimə minnətdar olmalıdır.

70 yaşı olmasına baxmayaraq, professor A.Xələfov fiziki və intellektual qüvvələrinin çiçəkləndiyi bir dövrü yaşayır. Bu gün də Abuzər müəllim elmin, maarifin, mədəniyyətin və mənəviyyatın keşiyində ayıq-sayıq dayanır. Universitetin və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələrə bir ağsaqqal alim kimi öz münasibətini bildirir. Abuzər müəllimə bu xeyirxah və gərəkli işində yeni-yeni uğurlar arzulayırıq!